# Yeni il - "Yaşıl il"ə həmrəylikllə gəlir

Bu gün dünyanın iki bədbin mənzərəsi mövcuddur. Bir tərəfdə planetimiz aramsız davam edən müharibələrdən əziyyət çəkir, digər tərəfdə isə təbii fəlakətlərin sırası durmadan uzanmaqdadır. Bu çıxılmaz vəziyyət pərdə arxasında yox, hamının gözü qarşısında getdikcə ağırlaşır. Hamı məsələnin ciddiliyindən danışsa da, bu barədə saysız yazılar və filmlər hazırlansa da, vəziyyəti düzəltmək üçün atılan real addımlar demək olar ki, nəticəsiz qalır. Sanki Ukraynada, Qəza sektorunda və başqa qaynar nöqtələrdə davam edən müharibələr təbii fəlakətlərdən, təbii fəlakətlərsə qanlı qarşıdurmadan "ilham" alıb bəşəriyyətin sonuna çıxmaq istəyirlər. Dünya bu təhlükələrə nə qədər biganə yanaşsa da, Azərbaycan fərqli münasibətləri sərgiləyə bilən ölkələrin sırasındadır. Məlum olduğu kimi, dünən Prezident ilham Əliyev ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalamışdır. Erməni işğalından yeni qurtulan və ərazilərində böyük quruculuq işləri aparan bir dövlətin belə gərgin məqamda dünyanın ekoloji problemlərinin qorunmasını da önə çəkməsi və bu istiqamətdə ciddi addımlar atması təqdirəlayiqdir. Biz onun şahidi oluruq ki, bir sıra aparıcı dövlətlərin süst addımları fonunda Azərbaycan bu sahədə daha fəal və daha qətiyyətlidir. Prezidentin imzaladığı sərəncamda qeyd olunur ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə daim ciddi addımlar atır, baş verən ekoloji fəlakətləri yüngülləşdirmək üçün zəruri tədbirlər həyata keçirir. Təsadüfi deyil ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin sənəddəki vəzifələrin icrasına nail olmaq üçün ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətlərində zəruri addımlar atılır və vacib işlər görülür. Bu işlər sayəsində baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35, 2050- ci ilə qədər isə 40 faiz azaldılması gözlənilir. Diqqətçəkən həm də odur ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunmuşdur. Bu isə o deməkdir ki, həmin regionlarda ətraf mühitin qorunması prioritet kimi əsas götürülmüşdür. Artıq işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq və ekosistem fərqli və müasir qaydalar əsasında bərpa edilir. Ümumiyyətlə, "yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetinə çevrilmişdir. Burada maraqlı bir faktı da qeyd etmək yerinə düşərdi: Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını qarşısına məqsəd qoymuşdur. Həm də bu səbəbdəndir ki, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29" kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərar verilmişdir. Bu onu göstərir ki, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimad göstərilir, ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində atdığı mühüm addımlar bütün dünyada rəğbət doğurur. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan müasir dünya düzənində yeni düşüncə tərzinə, daha çevik və faydalı addımlar atmaq bacarığına malikdir. 30 illik erməni işğalının vurduğu ağır ziyanların aradan qaldırılması ilə bərabər, ölkəmizin qlobal hədəflərə istiqamətlənməsi isə onu göstərir ki, Azərbaycan bütün bəşəriyyəti düşündürən problemlərin həllində də fəal iştirakçıdır.

**"Qəbələ"**

# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

Ümummilli Lider Heydər Əliyev milli diaspor hərəkatına, diasporumuzun inkişafına daim xüsusi diqqət və qayğı göstərir, bu vacib sahəyə mühüm töhfələr verirdi. O, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi zaman qərar imzalamış və dekabr ayının 31-ni "Dünya Azərbaycanlılarının həmrəyliyi və birliyi günü" elan etmişdi. Dünya ölkələrində yaşayan həmvətənlərimizin həmrəyliyi və birliyi kimi mühüm missiyanı müdrik rəhbərin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev yüksək səviyyədə genişləndirir və irəli aparır.

Onilliklər boyu səfərlər edib, Rusiya bölgələrində milli diaspor təşkilatlarımızın fəaliyyətini araşdırdıqca, əslən Qəbələdən olan fəallarla da iftixarla görüşürəm. Rusiyanın müxtəlif şəhərlərində, istər sovet dövründə, eləcə də sonraki mərhələdə, fəxrlə adlarını xatırlamalı qəbələli alimlər olub, indi də var və onların fəaliyyətindən zaman-zaman bəhrələnə bilirik. Elə götürək, Rusiyada "Lixiye 90-ıye qodı", yəni ötən əsrin "90-cı fəlakət və hərc-mərclik illəri" kimi leksikaya daxil olmuş, ən qəddar cinayətlərlə, ədalətsizliklərlə, ikili standartlarla tarixin səhifələrinə yazılmış zaman kəsiyini. O vaxtlar bizim üçün ən acı həqiqətlərdən biri də o idi ki, ermənilərin deputatı, sonralar Sankt-Peterburqda qətlə yetirilmiş başabəla Qalina Starovoytova, yersiz siyasi mövqeyinə görə uzun müddət Qorkidə (indi Nijni Novqorod) sürgündə olmuş və Qorbaçovun sərəncamilə Moskvaya qaytarılmış akademik Andrey Saxarov və başqa bu kimi adamlara tay araqızışdıranlar, titullarından sui-istifadə edib televiziya ekranlarından xalqımızın adına vaxtaşırı təhqir, böhtan yağdırır, Qarabağın Azərbaycan torpağı olmadığını iddia edirdilər. Andrey Nuykin adlı müxbir, jurnalist etikasına uyğunlaşmayan, yazar ünvanına çirkab yapışdıran birisi isə, öz böhtanları ilə lap uzağa getmişdi. "Qarabağ gündəliyi" ("İzvestiya", 19.10.1991) adlandırdığı cızmaqarasında xalqımızın adına çirkin ifadələr işlətməkdən çəkinməmiş, həqiqətlə əlaqəsi olmayan hər cürə uydurmaları mərkəzi mətbuat səhifəsinə çıxarmışdı. Bax, belə hərc-mərclik dövründə, Qarabağ probleminin həlli məsələsi də gərginləşirdi, ölkəmizin alındığı informasiya blokadası dərinləşirdi, min bir çətinliklərlə üzləşə-üzləşə Rusiyada yenicə yaradılmasına başladığımız milli diasporumuzun inkişafına da ciddi maneələr yaranırdı, ümumilikdə orada - Rusiyada yaşayan, fəaliyyət göstərən, təhsil alan həmyerlilərimiz, layiq olmadıqları əngəllərlə üzləşirdilər.




Həmin məşəqqətli illərdə, SSRİ EA-nın əməkdaşı, tarix elmləri doktoru, bizim məşhur Musabəyovlar nəslindən görkəmli alim Ümnisə xanım Musabəyovanın (1902-1974) qızı Dilarə xanım İsmayılzadə (1931-2009) "Naseleniye qorodov Zakavkazskoqo kraya v XIX naçale XX veka" ("Zaqafqaziya diyarının əhalisi XIX əsrdə və XX əsrin əvvəllərində", Moskva-1991) adlı elmi əsərini nəşr etdirdi. Monoqrafiyanın məsul redaktoru EA-nın müxbir üzvü A.R.Novoseltsev, rəyçi isə tarix elmləri doktoru V.L.Yeqorov idi. 256 səhifəlik bu kitabı yazıb ərsəyə gətirmək üçün, Dilarə xanım , bəlkə də yüzlərlə arxiv sənədlərinə müraciət etmiş, Zaqafqaziyanın bütün şəhərlərinə dair müfəssəl məlumatlar toplaya bilmişdi. Hansı şəhərlərdə hansı millətdən (azərbaycanlı, gürcü, erməni nəzərdə tutulur) neçə nəfər yaşadığı, ən nəhayət, bütün şəhərlərdə bizim doğma azərbaycanlıların üstünlük təşkil etdiyini sübuta yetirmişdi. Bu toplu orada, müəllifin və yenicə yaranmaqda olan milli diaspor üzvlərinin, alim həmvətənlərimizin fəallığı ilə müəyyən dairələrə çatdırılmışdı. Bununla da, az qala, bütün Moskva bizim əleyhimizə işlədiyi bir vaxtda, Dilarə xanımın əsl fədakarlıq göstərərək ərsəyə gətirdiyi nəşr dadımıza çatmışdı. Tarixi bilmədən, lakin ucadan qışqıran "yeni tarixçilərin", qismən də olsa səsini azalda bilmişdi. Həmçinin, doğma Qəbələdən çox uzaqda, 1946-cı ildən ömrünün sonunadək Yaroslavl Texnologiya İnstitutunda dosent, professor, kafedra müdiri işləmiş kimya elmləri doktoru, bir çox elmi və publisistik əsərlərin, o cümlədən rus dilində "Dünyanın görkəmli kimyaçıları" (Moskva-1971) kitabının müəllifi Yusif Süleyman oğlu Musabəyovun (1910-1970) iftixarla adını qeyd edək. O, öz gərgin elmi axtarışları və kəşflərilə Rusiyada, xüsusilə də Yaroslavl şəhərində, uca ünvan sahibinə çevrilmişdi. Çoxdanki arzumu, o şəhərdə Fəxri xiyabanda məşhur alimin məzarını ziyarət etmək istəyimi, Yusif müəllimin 100 illik yubileyi ərəfəsində yerinə yetirdim. Yaroslavl şəhər diaspor fəalları və alimin, görüşə gələn qızı Nailə xanımla, nəvə-nəticələrilə bir yerdə onun məzarını ziyarət etdik. Bildirmək istəyirəm ki, bu şəhərdə yaşayan azərbaycanlılar, sönməz Yusif Musabəyov məşəlinin, onların fəaliyyətinin üzərinə daim şəfəq saçdığını vurğuladılar. Və diaspor təşkilatı rəhbərliyi də öz növbəsində həmin elm ocağının elmi şurası ilə birgə Y. Musabəyovun adının əbədiləşdirilməsi məqsədilə, yuxarı dövlət təşkilatlarına yazılı müraciət etmişdir. Yaroslavl şəhər meri V. V. Volonçunasın sərəncamı əsasında Texnologiya Universitetinin binasının fasadında Paris Beynəlxalq Elm Tarixi və Fəlsəfəsi Akademiyasının ekstra-ordinar üzvü Yusif Musabəyovun xatirə lövhəsi ucaldılmaqla, alimin adı əbədiləşdirilmişdir.

Bu gün Rusiyadakı milli diaspor icmalarımızın fəalları sırasında, Moskvada, əslən Həzrə kəndindən olan ali təhsilli həkim, 1982-ci ildə Moskvada aspiranturanı bitirib tibb elmləri namizədliyini uğurla müdafiə etmiş, 1990-cı ildən Moskva vilayətində 135 adda tibb preparatı istehsal edən Yaşar Musa oğlu Hüseynov, Vəndam qəsəbəsindən, Azərbaycan Tibb Universitetinin məzunu, uzun illər Rusiya paytaxtında həkim işləmiş Rəfail Məhəmməd oğlu Mirzəyev, 1975-ci ildən Nijni Novqorodda çalışan, Uludaş kəndində doğulmuş polis mayoru Səbahəddin Məmmədəli oğlu Muştaqov, Nic kəndində dünyaya gəlmiş, APİ-nin və Ural Dövlət Universitetinin məzunu, hazırda Volqoqrad Dövlət Xidməti Akademiyasının professoru, fəlsəfə elmləri doktoru Riçard Aramiyeviç Danakari kimi insanların və başqa qəbələlilərin adı hörmətlə çəkilir. Qeyd etməyə bilmirəm ki, R.Danakari Volqoqradda Udin icmasının sədri olaraq, oradakı Azərbaycan diaspor təşkilatları ilə əlaqəli işləyir, səriştəli alim kimi, maraqlarımıza xidmət edən nəşrlərin tərtib olunmasında, çapa hazırlanmasında köməyini əsirgəmir.

Rusiyadakı milli diaspor birliklərimizin rəhbərləri və fəalları, bu gün Azərbaycan həqiqətlərinin, mədəniyyətimizin yayımlanmasında, milli adət-ənənələrimizin qorunub saxlanmasında, özlərinin ortaya çıxardığı nəşr nümunələrindən, daha çox, hazırda geniş yayılmış sosial şəbəkələrdən, yaşadıqları şəhərlərdə mövcud kütləvi informasiya vasitələrindən, o cümlədən, tele-radio kanallarından səmərəli istifadə edir, doğma Respublikamızla həmrəylik nümayiş etdirirlər.

**Ramin MƏMMƏDOV,**
**yazıçı-publisist, Qaradağ rayon AŞ-nın sədri, Birinci Qarabağ müharibəsi veteranı.**

# İdman paytaxtı

**Gənclər və İdman Naziri Fərid Qayıbovun sədirliyi ilə keçən növbəti kollegiya iclasında Qəbələ 2025-ci il üçün "İdman Paytaxtı" seçilmişdir.**

# Qızılca ilə əlaqədar Qəbələ məktəblərində dezinfeksiya işləri

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən şəhər məktəblərində dezinfeksiya işləri aparılmışdır. Qəbələ



rayonunun məktəblərində şagirdlər arasında qızılca xəstəliyinin yayılmasının qarşısının alınması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirilir. Təhsil müəssisələrində aparılan dezinfeksiya işləri davamlı xarakter daşıyır və vəziyyət nəzarətdə saxlanılır. Məktəblərdə nəzarət gücləndirilib, pedaqoji kollektivə şagirdlərin səhhətində müşahidə oluna biləcək hər hansı narahatlıq halları ilə bağlı daha diqqətli olmaları tövsiyə edilib. Səhhətində narahatlıq müşahidə edilən məktəblilərin valideynləri ilə əlaqə saxlanılır, vəziyyətə uyğun tədbirlərin görülməsi təmin edilir. Valideynlərə tövsiyə olunur ki, övladları mövsümi xəstəliklərə və virus infeksiyalarına yoluxduğu halda tam sağalanadək onların digər uşaqlarla yaxın təmasda olması məqsədəuyğun deyildir.